# MƏNBƏŞÜNSALIQ

*R.İskəndərli. "Musıqa qudamai - l - mısrıyyin" əsəri musiqi haqqında dəyərli mənbə kimi // Əlyazmalar yanmır, 2022, № 1 (14), s.182-185.*

UOT: 09; 78.

**Rəna İskəndərli**
*AMEA M.Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: iskenderlirena@gmail.com*

## "MUSIQA QUDAMAİ - L - MISRIYYİN" ƏSƏRİ MUSİQİ HAQQINDA DƏYƏRLİ MƏNBƏ KİMİ

**Xülasə**

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunda əlyazmalarla yanaşı, çap kitabları da qorunub saxlanmaqdadır. Bu çap kitabları ədəbiyyata, dilə, texniki fənnlərə, ilahiyyata və s. elm sahələrinə aiddir. Belə kitablardan biri də Məhəmməd Əhməd əl – Həfninin "Musıqa qudamai-l-mısrıyyin" əsəridir. Bir neçə bölmədən ibarət olan bu çap kitabında, Misir ərəblərinin qədim, orta dövr musiqi mədəniyyətindən, tarixindən, inkişaf yolundan bəhs edilir. Əsər musiqişünaslıq baxımından çox dəyərli bir mənbədir. Şübhə yoxdur ki, hər hansı bir xalqın etnogenezini öyrənərkən, əvvəla onun illər boyu inkişaf mərhələsinin keçmiş mədəniyyət keyfiyyətlərinə nəzər salmaq vacibdir. Müəllifin özü bu məsələyə toxunarkən yazır: "*Musiqi tarixi xalqların sivilizasiyasını, onların mədəniyyətlərini və şüurun inkişafını əks etdirən güzgüdür*" [1, s. 12]. Digər cəhətdən, əgər bəşəriyyət ən qədim tarixini bu məmləkətlə bağlayırsa, deməli, bu ərazidə yaranmış ilk musiqi mədəniyyəti nəinki ərəblərin, bütün bəşəriyyətin nemətidir. Bu baxımdan, əsərin "Musıqa qudamai-l-mısrıyyin" əsərinin öyrənilməsi çox zəruridir. Kitab qədim və orta əsr Misir dövlətində istifadə edilən ilk musiqi alətləri haqqında geniş məlumat verir.

***Açar sözlər:*** *Misir, musiqi, alət, müəllif, tarix, mədəniyyət*

## Giriş

*Min illər bundan əvvəl insanlar öz səsindən istifadə edərək cümlələr deməyə, mahnılar ifa etməyə başladılar və zaman keçdikcə sözlərin onların daxili aləminin dərinliklərində qərarlaşan hiss və arzularını ifadə etməkdə aciz olduğunu duyduqda yeni vasitələr axtarmağa başladılar. Belə vasitə yalnız və yalnız musiqi aləti ola bilərdi. Beləliklə də insan musiqili məclislərdə, mövsümü mərasimlərdə, daxili hisslərin izhar edilməsində sözlərin aciz qaldığı zaman onun köməyinə çata biləcək musiqi alətlərinə böyük ehtiyacının olduğunu dərk etdi.*

*Misir musiqisi dünyanın ən qədim musiqi mədəniyyətlərindəndir. Dövrümüzə qədər gəlib çatmış ilk musiqi mədəniyyəti abidələri təqribən e.ə 5-ci minilliyə aiddir. Qədim divar rəsmləri və sərdabələrin divarlarındakı barelyeflərlə müğənni və musiqiçilərin təsvir olunması musiqini məişətdə geniş yayıldığına sübutdur. Kütləvi bayram və təntənələr, din mərasimləri, əmək prosesləri daim musiqi ilə müşayiət olunurdu. Eyni zamanda, qədim musiqi alətləri xalqın tarixi, mədəniyyət və mənəviyyat abidəsidir. Unudulmuş abidələri bərpa etmək, onları yenidən həyata qaytarmaq, tarixin qaranlıq səhifələrini işıqlandırmaq, mənəviyyatımızı, mədəniyyətimizi zənginləşdirmək çox şərəfli və mötəbər bir işdir.*

### *Misir simli musiqi alətləri*

Xalq çalğı alətlərinin insan həyatında böyük rolu vardır. Qədim Misir alətləri üç növə - simli, nəfəs, ritm (zərb) alətlərinə bölünür.

1. Simli alətlərin ən qədim növü çünk və ya sənç kimi adlanan alətdir. Bu alət misirlilərin ən əhəmiyyətli aləti olub və qədim musiqi firqəsinin əsas ünsürlərindən idi. Yarımdairəvi, əyri formada olduğu üçün onu çünk "mühənnən" və ya çünk "müqəvvas" – yəni, əyri adlandırırdılar. Bu alətin digər simli alətlərdən fərqli və səciyyəvi xüsusiyyəti simlərin korpusa perpendikulyar vəziyyətdə yerləşdirilməsidir. Alətin həcmindən asılı olaraq onu iki növə bölürlər: böyük və kiçik çünk. Böyük çünk daha qədim növdür. Həcmi insan boyundan böyük və ya bir az kiçik olub. Alət böyük olduğu üçün onu ayaq üstə çalırdılar (Ümumiyyətlə Qədim Misirdə böyük alətləri ayaq üstə, kiçik alətləri isə oturaq vəziyyətdə çalırdılar).

Çünk alətinin simləri adətən xurma liflərindən hazırlanırdı. Simlərin sayı 4 və ya 5 olardı. Hal – hazırda bu alətin qədim növü Qərbi Afrikada işlədilir [1, s. 22]. Alətin şəkli Qiza dağ naxışlarında aşkar edilib**.**

2. Ney də həmçinin Misir musiqi firqəsinin əsas ünsürü hesab olunurdu. Bu nəfəs aləti ağac parçasından hazırlanmış nazik boru şəklindədir. Alətin üzərində sayı 2-dən 6-dək olan bir-birindən 2 sm məsafədə aralı yerləşən dəliklər mövcuddur. Həcmə görə kiçik və uzun növü var. Bu alətin ən böyüyü, yəni uzun növü insan boyuna çatırdı. Ayaq üstə çalınırdı. Uzun neydən fərqli olaraq kiçik ney daha çox istifadə olunurdu. Bu alətin uzunluğu bir metrə çatırdı. Aləti oturaq vəziyyətdə çalırdılar. Çalınan zaman musiqiçi aləti ağızdan sağa və sola tərəf tutaraq çalırdı ki, bu da onu digər nəfəs alətlərindən fərqləndirən xüsusiyyət idi. Neyin səsi yumşaq və qüvvətli olduğu üçün çox dəbdə idi. Onu da qeyd etmək lazımdır ki, qədim dövlətdə neyi yalnız kişilər çalırdılar. Orta əsrlərdə qadınlar da bu alətdən istifadə etməyə başladılar. Neyin həcmindən və üzərində olan dəliklərin sayından asılı olaraq daha bir neçə növü var idi. Onlardan biri "Zuməra məzduça"dır. Nəfəs alətlərinə aid edilən bu alət musiqi

firqəsinin əsas alətlərindən deyildi. Lakin hərdən bu alətdən istifadə edilirdi, bu da təbii ki, musiqinin keyfiyyətinə müsbət təsir göstərirdi. Alət başqa bir alətlə cüt çalınardı, bu da onu digər alətlərdən fərqləndirən cəhət idi. Adı çəkilən alət ağac parçasından hazırlanmış nazik boruya bənzəyir. Alətin çalınmasında ikinci və orta barmaqlardan istifadə olunur. Bu alətin müxtəlifliyi və adlandırılması üzərində olan deşiklərin sayından asılıdır. Məsələn, "zuməra sittuviyyə" o deməkdir ki, alətin üzərində 6 deşik var ("sittun" - ər. altı) [3, s. 433]. "zuməra rabıiyyə" – o deməkdir ki, alət 4 deşiklidir [3, s. 358].

***Qədim Misir zərb (ritm) musiqi alətləri -*** bu sıraya daxil edilən alətlər ən qədim alətlərdir. Onların rolu az idi və yalnız ritmin qüvvətləndirilməsindən və hərəkətin tənzimlənməsindən ibarət idi. Bu sıraya nağara, çurs və çələçəl kimi zınqırovlu alətlər, o cümlədən, şəçlilə, təbil və s. alətlər daxildir. Bu alətlərdən adətən dini mərasimlərdə, məhsul və ya şərab bayramlarında rəqs zamanı istifadə edilirdi. Yuxarıda qeyd etdiyimiz kimi, bu alətlər ən qədim alətlərdən hesab olunur. Çünki onu ibtidai insan öz cismində aşkar edib və bu alətlərin ilk növləri insan əlləri və ayaqları olub. Sonralar, zaman keçdikcə, şüurun inkişafı nəticəsində yeni növlər meydana çıxdı. Alətlərin hazırlanmasında material olaraq ağacdan, daşdan, fil sümüyündən, metal və mineraldan istifadə edilirdi. Bu alətin qədim növləri "musaffaqatlar" idi. Alət müxtəlif formalarda olur: İki ağac parçası formasında, insan qolu formasında. Alətin nümunələri Berlin Misir muzeyinin fondunda saxlanılır. "Lauh musaqqafa" adlı musuqi aləti gildən hazırlanmış bardaqdan ibarətdir. "Ruus musaffaqa" adlanan bu musiqi alətindən adətən rəqs zamanı rəqqasələr tərəfindən istifadə edilirdi. Alət müxtəlif heyvan, məsələn ceyran başı şəklində, o cümlədən insan başı şəklində ola bilər. Alətin adı da elə buradan yaranmışdır: "Ruus" – "raas" ərəbcə baş deməkdir [3, s. 353].

Çurs və çələçəl adlı zınqırovlu alətlər bürüncdən düzəlirdi. Bu alətlərin nümunələri həmçinin Berlin Misir muzeyində mühafizə olunur.

Şəçlilə: Qədim misirlilərdə bu alətin müxtəlif növləri var idi. Bu alətin uzunluğu 8sm, ayrıca dəstəyin uzunluğu 19 sm-dir. İki hissədən ibarətdir: Dəstək və armud şəklində olan alətin özü. Alətin dəstəyi adətən müxtəlif formada hörülmüş bəzəklərlə bəzədilmişdir.

Təbil adlı alət böyük silindr formasındadır. Alətin mahiyyəti o gədər də böyük deyildi. Hətta zaman keçdikcə az istifadə olunan musiqi alətləri sırasına daxil olundu.

Səsiturum: Bu alətin ən qədim şəkli orta əsr naxışlarında aşkar edilib. Alət adətən bürünc və qızıldan hazırlanırdı. Alətdən yalnız xüsusi adamlar (muxassasat) istifadə edərdi. Alət adətən müxtəlif ilahələrin surəti ilə bəzədilirdi. Məsələn, bu adla olan alətlərin birində Xatur ilahəsinin inək başı və ya pişik başlı Basta ilahəsinin şəkli həqq olunurdı. Səsituruma gəlincə, bu alət nəinki misirlilərin, həmçinin Misirin təsir etdiyi digər dövlətlərin dini rəmzi hesab olunurdu.

Qədim misirlilərin musiqi firqəsinə gəlincə, o üç əsas ünsürdən ibarət idi: müğənni, sənç və ney çalan. Müğənni, firqənin qarşısında oturaraq həm mahnını ifa edirdi, həm də əlləri ilə havada müxtəlif hərəkətlər edərək musiqiçilərə musiqinin ifasında bir növ yardım edərdilər ki, bu da müasir müğənnilərlə qədim müğənnilər arasında olan fərqdir. Bu əl hərəkətlərinə "əl vasitəsi ilə musiqi" deyilirdi və müasir dirijorluqla bənzəyişi çoxdur. Avropalılar dirijorluğunun kökünü misirlilərlə bağlayaraq, bunu tam Misir üsulu olaraq adlandırırlar. Fərq yalnız ondan ibarətdir ki, avropalılar vərəq üzərində, qədim misirlilər havada əlləri ilə müxtəlif hərəkətlər edirdilər.

**Nəticə**

*Beləliklə, əsər qədim Misir mədəniyyətinin, o cümlədən ümumdünya mədəniyyətinin öyrənilməsində, musiqişünaslığın araşdırılmasında dəyərli mənbədir. Bu dəyərli kitabın əlamətli xüsusiyyətlərindən biri də odur ki, o, Səid bəy Nizami adlı fəzilətli müəllimə görkəmli ərəb yazıçısı, ərəb ədəbiyyatında novella janrının banisi Mahmud Teymur tərəfindən hədiyyə olunmuşdur.*

**Ədəbiyyat siyahısı:**

1. VIII-219/2797 Musiqa qudəmail-mısriyyin. Mahmud Əhməd əl-Hənəfi. Misir: "ər-Raqiyyə" mətbəəsi, 1936. Həcm:117 s.

2. M.İmran Xalq musiqi alətləri / M.İmran. Birinci nəşr, - Qahirə: Humanitar və sosial araşdırmalar tədqiqatlar mərkəzi, - 1994.

3.Арабско-русский словарь. Составитель Х.К.Баранов. I cild. Издательство «Советская энциклопедия». Москва – 1970.

**Rena Iskenderli**

**"Musyga Gudamai - l – Musriin" as a valuable source about music**

The Institute of Manuscripts named after Muhammad Fizuli of ANAS, along with manuscripts, also stores printed books. These printed books are devoted to literature, language, technical disciplines, theology and other fields of science. One of such books is "Musyga gudamai - l-misriin" by Muhammad Ahmad al-Hafni. This printed book, consisting of several sections, tells about the ancient, medieval musical culture of the Arabs of Egypt, their history of development. The work is a very valuable source from the point of view of musicology. There is no doubt that when studying the ethno genesis of any people, it is important from the very beginning to look at the cultural qualities that characterize the stage of development of this people. The author himself, touching on this issue, writes: "The history of music is a mirror reflecting the civilization of peoples, their culture and the development of consciousness". On the other hand, if humanity connects its ancient history with this territory, then the first musical culture that originated on this earth is the property not only of the Arabs, but also of all mankind. Therefore, the study of the book "Musyga Gudamai - l - Mysriin" is very relevant. The book provides extensive information about the ancient and first musical instruments used in the state of ancient and middle Egypt.

***Key words:*** *Egypt, music, instrument, author, history, culture*

Filologiya üzrə elmlər doktoru, dosent
**Nailə Mustafayeva** tərəfindən çapa tövsiyə olunmuşdur.